**Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar üçün birgə (kombinə edilmiş) ILAC MRA nişanından istifadə ilə bağlı**

**Razılaşma № _____**

**Bakı şəhəri** **Tarix: __________**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli 1234 nömrəli Fərmanına əsasən yaradılmış və Nizamnaməsinə əsasən fəaliyyət göstərən "**Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxsin** (bundan sonra - AzAK) **direktoru Emin Tamerlan oğlu Zeynalov** şəxsində bir tərəfdən və nizamnaməsinə əsasən fəaliyyət göstərən **(uyğunluğu qiymətləndirən qurum)** (bundan sonra "UQQ" adlandırılacaq) **rəhbəri (A.S.A)** şəxsində digər tərəfdən, ("UQQ" və AzAK ayrılıqda "Tərəf", birlikdə isə "Tərəflər" adlandırılacaq), ILAC MRA nişanından istifadəyə dair **Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatı (ILAC)** ilə AzAK arasında imzalanmış razılaşmaya müvafiq olaraq aşağıdakı şərtlərlə bu Razılaşmanı bağladılar.

## 1. Razılaşmanın predmeti

1.1. Bu Razılaşma "Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar üçün birgə (kombinə edilmiş) ILAC MRA nişanı"ndan (bundan sonra – nişan) istifadəyə dair Tərəflər arasında münasibətləri tənzimləyir.

1.2. Bu Razılaşma ilə AzAK AZ 00.0000.00.00 akkreditasiya attestatına malik UQQ-yə nişandan istifadə üçün razılıq verir.

## 2. Tərəflərin hüquq və vəzifələri

2.1. UQQ-nin hüquqları:

2.1.1. Nişandan istifadə etmək;

2.1.2. Razılaşmanın qüvvədən düşməsi üçün AzAK-a müraciət etmək.

2.2. UQQ-nin vəzifələri:

2.2.1. Nişandan istifadə zamanı AzAK P014, AzAK P016, ILAC R7 sənədlərinin tələblərinə ciddi şəkildə əməl etmək;

2.2.2. Nişandan yalnız təsdiq olunmuş akkreditasiya sahəsinə uyğun olaraq istifadə etmək;

2.2.3. İllik qiymətləndirmə, şikayət olduğu halda isə plandankənar qiymətləndirmənin aparılması üçün AzAK ilə zəruri əməkdaşlıq etmək və nişandan istifadəyə aid AzAK tərəfindən tələb olunan bütün sənəd və məlumatları AzAK-a təqdim etmək;

2.2.4. Akkreditasiya attestatının qüvvəsinin müvəqqəti dayandırılması (tam və ya qismən), akkreditasiya sahəsinin məhdudlaşdırılması (tam və ya qismən) və ya akkreditasiya attestatının ləğvi (geri çağırılması) barədə qərarı aldığı gündən etibarən müvafiq olaraq nişandan istifadəni dayandırmaq;

2.2.5. Təsdiq edilmiş akkreditasiya sahəsi üzrə fəaliyyətinin dayandırıldığı, ləğv edildiyi və ya UQQ-nin ləğv olunması ilə bağlı işlər başlandıqda AzAK-ı dərhal məlumatlandırmaq;

2.2.6. UQQ-nin müştərisinin və ya digər üçüncü tərəfin bu nişandan istifadəsinin qarşısını almaq;

2.2.7. Nişandan istifadəyə nəzarət etmək, nişanın düzgün istifadə edilmədiyi hallar aşkar edilərsə, dərhal müvafiq tədbirlər həyata keçirmək;

2.2.8. Bu Razılaşmanın tələblərini pozduğu və ya vəzifələrini icra etmədiyi hallarda ILAC-a, həmçinin AzAK-a qarşı hər hansı iddialar, tələblər irəli sürməmək, məhkəmə proseslərinə ILAC və AzAK-ın cəlb olunmasının qarşısını almaq, ILAC və AzAK-a dəymiş zərərin məbləğini tam ödəmək;

2.2.9. Nişandan istifadə ilə bağlı üçüncü tərəflərdən şikayət daxil olduğu hallarda AzAK-ı dərhal məlumatlandırmaq.

2.3. AzAK-ın hüquqları:

2.3.1. Nişandan düzgün istifadə edilmədiyi halda, bu Razılaşmanı birtərəfli qaydada ləğv etmək;

2.3.2. Nişandan düzgün istifadə edilmədiyi hal aşkar edilərsə, məhkəməyə müraciət etmək;

2.3.3. Bu Razılaşmanın tələblərinin pozulduğu hallarda ILAC-a və AzAK-a dəymiş zərərin məbləğini tam ödəməyi UQQ-dən tələb etmək;

2.3.4. Nişandan istifadəyə aid məlumatların təsdiqlənməsi, dəqiqləşdirilməsi və ya aydınlaşdırılması üçün bütün sənəd və məlumatları UQQ-dən tələb etmək;

2.3.5. Bu Razılaşmanın 2.2.3-ci bəndində nəzərdə tutulmuş sənəd və məlumatları AzAK-a təqdim etmədikdə bu Razılaşmanı birtərəfli qaydada ləğv etmək;

2.4. AzAK-ın vəzifələri:

2.4.1. İllik qiymətləndirmə, şikayət olduğu halda isə plandankənar qiymətləndirmə zamanı nişandan istifadəni qiymətləndirmək.

2.5. Tərəflərdən heç biri bu Razılaşma üzrə hüquq və vəzifələrini üçüncü tərəfə ötürə bilməzlər.

## 3. Fors-major halları

3.1. Əgər fövqəladə vəziyyət (daşqın, zəlzələ, dövlət orqanları tərəfindən işlərin yerinə yetirilməsinə mane olan və ya qadağan edən aktın qəbulu) Tərəflərin bu Razılaşma üzrə vəzifələrinin tam və ya bir hissəsinin yerinə yetirilməsini mümkünsüz edərsə, onlar məsuliyyətdən azad olunurlar.

3.2. Bu Razılaşma üzrə vəzifələrin icra müddəti fövqəladə vəziyyətin və onun nəticələrinin davam etdiyi müddətə müvafiq olaraq təxirə salınır.

3.3. Fövqəladə vəziyyət yaranarsa, fövqəladə vəziyyətin yarandığı gündən 5 (beş) təqvim günü ərzində Tərəflərdən biri digərini yazılı şəkildə məlumatlandırmalıdır. Azərbaycan Respublikasının fövqəladə vəziyyət baş verən təşkilatın verdiyi və ya səlahiyyətli dövlət orqanları tərəfindən verilmiş müvafiq sənədlər (arayışlar, aktlar və s) fövqəladə vəziyyətin baş verdiyini təsdiq edən sənədlərdir.

3.4. Əgər fövqəladə vəziyyət 3 (üç) aydan çox davam edərsə və onun bitməsi haqqında dəqiq qərar vermək mümkün deyilsə, Tərəflərdən hər biri bu Razılaşmaya xitam vermək hüququna malikdir.

3.5. Fövqəladə vəziyyət barədə xəbərdarlıq etməmək və ya xəbərdarlığı vaxtında etməmək Tərəfləri bu Razılaşma üzrə vəzifələrin yerinə yetirilməməsinə görə nəzərdə tutulmuş məsuliyyətdən azad olunma səbəbi kimi fövqəladə vəziyyətlərə istinad etmək hüququndan məhrum edir.

## 4. Digər şərtlər

4.1. Bu Razılaşma Tərəflər arasında imzalandığı gün qüvvəyə minir və akkreditasiya attestatının qüvvədən düşdüyü müddətə qədər etibarlıdır. Təkrar akkreditasiya nəticəsində akkreditasiya attestatı yenilənərsə, UQQ ilə yeni Razılaşma imzalanır.

4.2. Bu Razılaşma Azərbaycan dilində Tərəflərin hər biri üçün bir nüsxə olmaqla iki nüsxədə tərtib olunur.

4.3. Bu Razılaşma aşağıdakı hallarda da ləğv oluna bilər:

4.3.1. Tərəflərin razılığı ilə istənilən vaxt;

4.3.2. AzAK-ın ILAC-dakı üzvlüyü müvəqqəti dayandırılarsa, və ya ləğv olunarsa;

4.3.3. UQQ-nin akkreditasiya attestatının qüvvədə olma müddəti bitərsə;

4.3.4. AzAK ləğv olunarsa;

4.3.5. UQQ ləğv olunarsa;

4.3.6. Nişandan yanlış istifadə olunduğu hal aşkar olunarsa;

4.3.7. ILAC MRA nişanından istifadəyə dair ILAC ilə AzAK arasında imzalanmış razılaşma ləğv olunarsa;

4.3.8. Akkreditasiya müqaviləsi ləğv olunarsa.

4.4. Tərəflər bəyan edirlər ki, bu Razılaşma üzrə üzərilərinə götürdükləri öhdəliklərin icrası onların iradə ifadələrini əks etdirir və qanunvericiliklə müəyyən edilmiş qaydalarla ziddiyyət təşkil etmir.

4.5. Tərəflər bu Razılaşma üzrə yaranan mübahisə və fikir ayrılıqlarını danışıqlar yolu ilə aradan qaldıracaqlar, bu mümkün olmadıqda aidiyyəti üzrə məhkəməyə müraciət edə bilərlər.

4.6. Bu Razılaşmaya dair sənədləri elektron poçt və ya faksla göndərmiş Tərəf, sonrakı 10 (on) təqvim günü ərzində müvafiq sənədin əslini digər Tərəfə göndərməlidir.

4.7. Bu Razılaşmaya edilmiş bütün əlavə və dəyişikliklər yazılı şəkildə tərtib edilib hər iki Tərəfdən imzalandıqdan sonra hüquqi qüvvəyə minir.

4.8. Bu Razılaşmada nəzərdə tutulmayan digər hallarda Tərəflər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyini əsas götürürlər.

## 5. Tərəflərin rekvizitləri və imzaları

| **AzAK:** | **UQQ:** |
|---|---|
| **"Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs** | **Uyğunluğu qiymətləndirən qurum** |
| M.Y. __________________ E.T.Zeynalov<br>imza | M.Y. __________________ A.S.A<br>imza |